Milli Qurtuluşun Zəfər yolu

Artıq ikinci ildir ki, ölkə ictimaiyyəti 15 İyun - Milli Qurtuluş Gününün növbəti ildönümünü dövlət səviyyəsində xüsusilə böyük ruh yüksəkliyi ilə təntənəli şəkildə qeyd edir. Bu əlamətdar təqvimin mahiyyətinə 44 günlük Vətən müharibəsi nəticəsində yaranmış yeni siyasi, iqtisadi və beynəlxalq reallıqlar kontekstində yeni baxış bucağından araşdırarkən Milli Qurtuluş Gününün siyasi çəkisi daha dolğun dərk olunur. Hesab edirəm ki, bunun üçün həmin günün labüdlüyünü şərtləndirən və bilavasitə Heydər Əliyevin siyasi fəaliyyəti ilə sıx bağlı olan tarixi mərhələlərin təhlili fonunda Azərbaycanın yaxın keçmişinə faktlar əsasında və müqayisəli şəkildə baxmağa ehtiyac vardır.

Heydər Əliyev: "Müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətindir"

1991-ci ilin oktyabrında formal olaraq müstəqillik aktına imza atmış Azərbaycan bu tarixi nailiyyəti itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Belə ki, o dövrdə ölkə daxilindəki vətəndaş müharibəsi həddinə yüksəlmiş qarşıdurmalar nəticə dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədələ almışdı. Hadisələri düzgün qiymətləndirə bilməyən o vaxtkı iqtidar isə xalq arasında gündən-günə nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi.

Digər tərəfdən də təcavüzkar Ermənistanın öl-kəmizə qarşı torpaq iddiaları ilə müşayiət olunan Dağlıq Qarabağ problemi ağır yük kimi Azərbaycanın başı üzərində dururdu. Hər kəsin var gücü ilə xarici düşmənə qarşı həmrəylik nümayiş etdirməli olduğu belə bir şəraitdə ayrı-ayrı mafioz qruplarda birləşmiş hakimiyyət hərisləri özlərinin şəxsi maraqlarına xidmət edən fəaliyyətlə məşğul idilər.

1992-ci ilin yaz aylarından başlanan daxili hərc-mərclik, siyasi qüvvələrin çəkişməsi cəbhə bölgəsinin nəzarətdən kənar qalmasına və Qarabağ savaşında ermənilərin üstünlüyü ələ almasına gətirib çıxardı. Başqa sözlə, AXC-Müsavat cütlüyü Qarabağ "kartından" istifadə etməklə meydan hərəkatının dalğası üzərində dövlət çevrilişi hayata keçirərək hakimiyyəti faktiki olaraq zəbt etdi. Bu siyasi tandemin antimilli siması bir il ərzində hakimiyyətdə olduğu zaman tam çılpaqlığı ilə bəlli oldu. Daxili və xarici siyasətdə buraxılan səhvlər onsuz da mürəkkəb olan vəziyyəti daha da gərginləşdirdi. Üstəlik, Qarabağ məsələsi də milli maraqlar çərçivəsindən çıxaraq şəxsi mənafe predmetinə çevrilmişdi. 1992-ci ilin mayında Şuşa və Laçın rayonlarının, sonraki mərhələdə isə Kəlbəcərin bütövlükdə işğalı nəticəsində Dağlıq Qarabağ faktiki olaraq Ermənistanla birləşdi. Beləliklə də, bu hadisələr yarımaz fəaliyyəti və davranışları ilə xalq arasında tamamıla nüfuzdan düşmüş AXC-Müsavat hakimiyyətinin biabırçı sonunu yaxınlaşdırdı. Yekun nəticə isə yenicə bərpa edilmiş dövlət müstəqilliyimizin əsrin əvvəllərində cəmi 23 ay fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyətinin uzlaşdıyı acı taleyini yaşamaq təhlükəsinin reallığı idi.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev 2021-ci il yanvarın 15-də Şuşa şəhərində hərbçilərlə görüşərkən etdiyi çıxışda AXC-Müsavat cütlüyünün xəyanətkar mahiyyətini bir daha ifşa edərək onu səciyələndirən məqamlarla bağlı açıqlama vermişdir. *"Heydər Əliyev hakimiyyətə gələndə artıq Şuşa işğal altında idi, Kəlbəcər işğal altında idi, Laçın işğal altında idi, Daşaltı işğal altında idi, bütün ətraf bölgələr işğal altında idi və Dağlıq Qarabağla Ermənistan arasında coğrafi bağlantı yaradılmışdı. Xalq Cəbhəsi-Müsavat hakimiyyəti bunun günahkarıdır. Onlar bu xəyanəti tərədidlər, ondan sonra da qorxaqcasına qaçıb gizlədilər, fərariik etdilər. Şuşanı satdılar...Hər kəs bu tarixi görə bilər, bu, yaxın tarixdir. Xalq Cəbhəsi-Müsavat ancaq hakimiyyətə gəlmək üçün xəyanət, satqınlıq, cinayət tərədib. Sonra nə edib? Sonra da Azərbaycanda talançılığı dövlət siyasətinə çevirib, rüşvətxorluğu öz ideoloji prinsipi elan edib, satqınlığı, fərariyi Azərbaycan xalqının tarixinə bir ləkə kimi yapışdırıb. Xalq Cəbhəsi-Müsavat satqınları xalqımızı dünyanın gözü qarşısında rəzil etmişlər, biabır etmişlər"*

Hakimiyyətdə olan Müsavat-AXC cütlüyünün həyata keçirdiyi səbətsiz daxili və onun davamı olan xarici siyasət kursu Azərbaycanı region dövlətlərinin dəstəyindən məhrum etdi. Hətta, ABŞ Konqresi Azərbaycanı dövlət səviyyəsində hər cür yardımdan məhrum edən "907-ci əlavə"ni qəbul etdi.

Azərbaycanın nicat ünvanı - Heydər Əliyev

Bütün bunlar ona görə baş verirdi ki, dövlətçilik anlayışından bixəbər olan "cəbhəçi"nin siyasi səbətsizliği ucbatından və hakimiyyət uğrunda daxili çəkişmələr nəticəsində ölkə idarəolunmaz bir vəziyyətə düşmüşdü. Özlərinin "yetirməsi" olan polkovnik Surət Hüseynovun başçılığı ilə 1993-cü il iyunun 4-də Gəncə şəhərində baş vermiş hərbi qiyam bu hadisələrin kulminasiya nöqtəsinə çevrildi. Respublika faktiki olaraq real vətəndaş müharibəsinə sürüklənmişdi. Ölkədə hakimiyyətsizlik və xaos hökm sürürdü. Belə bir vəziyyətdən çıxış yolunu axtaran Azərbaycan xalqı xilasını artıq o zamanadək sadəqətli, şərəfli xidməti ilə umumxalq inamını və etibarını qazanmış, Naxçıvanı xarici təhdidlərdən qoruyaraq onun müstəqil idarə edilməsinə nail olmuş Heydər Əliyevin simasında görürdü. Hərbi birləşmələri əslində öz məqsədləri üçün istifadə edən ayrı-ayrı şəxslərin hədələrindən qorxub gizlənmiş və bu təhlükəli proseslərin qarşısını ala bilmədiyini dərk edən AXC-Müsavat iqtidarının köməyə xilas üçün sonda Heydər Əliyevdən imdad istədi.

Heydər Əliyevin xalqın və respublikanın hakim dairələrinin təkidli çağırışlarını qəbul edərək iyunun 9-da Naxçıvandan Bakıya gəlməsi ilə daxili və xarici düşmənlərimizin bütün planları pozuldu. Burada da xilaskarlıq missiyasını öz üzərinə götürən ulu öndər Bakıda hakimiyyət savaşının getdiyi bir vaxtda qardaş qırğınının qarşısını almaq məqsədilə həyatını təhlükə altında qoyaraq dərhal Gəncəyə yolland. Şübhə yoxdur ki, Gəncə qiyamının sülh yolu ilə qısa müddətdə yatırılması məhz onun düşünülmüş siyasi gedişləri və böyük şəxsi nüfuzu sayəsində mümkün olmuşdur. Bu hadisələrdən sonra xalqın öz xilaskarına olan inamı daha da möhkəmləndi və 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bu baxımdan, məhz həmin təqvimin Milli Qurtuluş Günü kimi mustəqil Azərbaycanın tarixinə düşməsi heç də təsadüfi deyil.

Ali Sovetin sədri seçilməklə həm də ölkə prezidentinin səlahiyyətlərinin icrasına başladığı zaman Heydər Əliyev problemlərin həlli üçün ilk növbədə ölkədə vətəndaş həmrəyliyinin, sabitliyin son dərəcə vacib olduğunu ictimaiyyətə bəyan etdi. *"Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz"*. Bunun ardınca isə *"Mənim həyatım də, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır"*, - söyləyərək böyük risklər altında xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü. Buradan çıxarılmış nəticə ondan ibarətdir ki, Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı tarixi zərurət idi.

Son dövrlər o zaman vəzifədə olmuş şəxslər 1993-cü il 4 iyun qiyamının başvermə səbəbləri ilə bağlı yeni gülünc, uydurma və dolaşıq açıqlamalar verməklə tarixi saxtalaşdırmağa cəhd edirlər. Sağlam məntiqə söykənən əsl həqiqət isə ondan ibarətdir ki, həm Gəncə hadisələrini tərədənlər, həm də onun qarşısını antikonstitusion yolla almaq istəyənlər eyni dərəcədə məsuliyyət daşıyırlar. Ali Sovet Gəncə hadisələrini təhqiq edən deputat istintaq komissiyasının işinin yekunu barədə 16 iyul 1993-cü ildə qəbul etdiyi qərarla bu hadisələrə siyasi qiymət vermişdir. Sənəddə deyilir: *"1993-cü il iyunun 4-də Gəncə şəhərində baş vermiş qanlı hadisələr Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyin və digər yüksək vəzifəli şəxslərin əvvəlcədən xüsusi düşünülmüş və planlaşdırılmış siyasətinin nəticəsi hesab edilsin, onlar tərəfindən Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının kobud surətdə pozulması kimi qiymətləndirilsin"*.

Təəssüf ki, ən azından həyatda və siyasətdə qaldıqlarına görə Heydər Əliyevə borclu olan cəbhəçilər və müsavatçılar umumxalq məqsədləri naminə legitim hakimiyyətə dəstək verməli olduqları halda öz nankor xislətlərini bu dəfə də ortaya qoydular. Onlar hər vachla Heydər Əliyevin müstəqiliyimizin qorunması və dövlət quruculuğu istiqamətində başladığı fəaliyyətə maneə olmağa, onun gördüyü taleyüklü işləri gözdən salmağa çalışdılar. Bunun üçün də yenə Qarabağ "kartından" istifadə etməyə cəhd göstərirdilər. 1993-cü ilin iyul-avqust aylarında Ağdərə, Ağdam, Cabrayıl, Fuzuli, Qubadlı rayonlarının düşmənin nəzarəti altına keçməsi də məhz onların əvvəlki dövrdə hərəkətə gətirdiyi proseslərin ətalətinin nəticəsi idi.

Dövlət orqanlarını fəaliyyətini və dövlətçiliyi bərpa etmək məqsədilə 1993-cü il oktyabr ayının 3-də keçirilən prezident seçkiləri nəticəsində Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev ölkəmizin inkişaf paradiqmalarını dövrün xüsusiyyətlərinə və zamanın tələblərinə müvafiq olaraq dəqiq müəyyənləşdirdi. 10 oktyabr 1993-cü il tarixində keçirilmiş andıçma marasimində o, hayatının qalan hissəsini də Azərbaycan xalqının xoşbəxtliyi naminə sərf edəcəyini bəyan etmişdi. *"Azərbaycan xalqı öz tarixinin ən mürəkkəb, faciəli dövrünü yaşayır. Məhz bu dövrdə mənim üzərimə mə qoyulan bu vəzifənin məsuliyyətini dərindən dərk edirəm və əmin etmək istəyirəm ki, bütün fəaliyyətimi, bütün həyatımı bu etibari doğrultmaq, xalqın umidlərini doğrultmaq işinə həsr edəcəyəm. Belə bir yüksək məsuliyyətli vəzifəni öz üzərimə götürərkən, birinci növbədə Azərbaycan xalqının zəkasına, müdriklıyinə, qüdrətinə güvənərəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi umidlər mənı bu vəzifəni üzərimə götürməyə məcbur etdibdir. Əmin etmək istəyirəm ki, bu umidləri doğrultmaq uçun əlimdən gələni əsirgəməyəcəyəm"*.

Azərbaycan yeni inkişaf mərhələsində: əsrə bərabər 10 il

Cəbhə bölgəsinda isə böhran davam edirdi. 1993-cü il oktyabrın 29-da Zəngilan rayonu da işğala məruz qaldı. AXC-Müsavatın hakimiyyətdən getməsinə baxmayaraq, hamın dövrdə yerlərdə, xüsusilə ordu bölmələrinin rəhbərliyində hələ də Elçibəy hakimiyyətinin təyin etdiyi şəxslər təmsil olunurdular və hadisələrin gedişinə ciddi təsir göstərmək imkanına malik idilər. Bu dönəmdə ərazi itkilərinin səbəbi də məhz bu amillə əlaqədidir.

İşğalın daha da genişlənməsinin qarşısını almaq məqsədilə Heydər Əliyev 1993-cü ilin dekabr ayında xalqa müraciət edərək bütün daxili çəkişmələri kənara qoyub torpaqları azad etmək naminə Azərbaycan hərbçilərini səfərbər olmağa çağırdı. Məhz onun birbaşa rəhbərliyi ilə Azərbaycan ordusunun boyuk uğurla yerinə yetirdiyi "Horadiz əməliyyatı" nəticəsində 1994-cü ilin fevralınadək Fuzuli rayonunun böyük bir hissəsinin - 23 yaşayış məntəqəsi azad edildi. Bu tarixin ən obyektiv qiymətini Heydər Əliyevin sonraki addımlarının timsalında zamanın özü verib. Taktiki uğur nümunəsi olan bu əməliyyatın əsas siyasi əhəmiyyəti ondan ibarətdir ki, öz havadarlarına arxayın olan və Azərbaycanı hərbi cəhətdən zəif və bacarıqsız hesab edən rəsmi Yerevanın bu mağlubiyyətdən sonra ataşkəs rejiminə imza atmaqdan başqa çıxış yolu qalmadı. İkincisi, Azərbaycan xalqının və əsgərinin əz Ali Baş Komandanına və ordunun gücünə inamı daha da artdı, insanlarda böyük ruh yüksəkliyi, vətənpərvərlik hissi daha yüksək səviyyədə formalaşmağa başladı.

Bununla belə, 1993-cü ilin ortalarında ölkə daxilində ictimai-siyasi vəziyyətin mürəkkəbləşməsindən və cəbhədəki durumun ağırlaşmasından öz maraqları naminə istifadə etmək istəyən və xarici havadarlarını dəstəyinə güvənən daxili separatçı qüvvələr də siyasi meydanda görünməyə başlamışdılar. Hamın ilin iyun-avqust aylarında canub bölgəsinin 7 rayonunu əhatə edən bir ərazidə Əlikram Hümbətovun ortaya atdığı üzdəniraq "Talış-Muğan Respublikası" ideyası, şimalda isə 1990-cı ildən bəri milli zəmində millətçi "Sadval" hərəkatının fəallaşması respublikanın müstəqilliyi üçün əlavə təhlükə mənbəyinə çevrilmişdi. Onlar əslində da Elçibəy hökumətinin yürütdüyü yanlış milli siyasət nəticəsində baş qaldırmışdılar. Separatçılar öz hədəflərinə çatmaq üçün Heydər Əliyevin məqlubiyyətini hamıdan çox arzulayan cəbhəçilərin mövqeyinə arxayın idilər. Bu da təsadüfi deyildi, çünki cəbhəçilər öz korporativ maraqları naminə onların niyyətlərinə adekvat münasibət göstərmirdilər. Vəziyyətin belə gərgin olmasına baxmayaraq, Heydər Əliyev xalqın dəstəyi ilə həm şimalda, həm də canubda süni yaradılmış separatçı meyillərin qarşısını aldı.

Atəşkəs rejiminin yaratdığı imkanlardan məharətlə istifadə etməklə Heydər Əliyev qısa zaman kəsiyində Azərbaycanın inkişafında əhəmiyyətli dönüş yarada bildi, ölkənin bir sıra ciddi problemləri öz həllini tapdı. 1994-cü ildə dövlət büdcəsinin gəlirləri və xərcləri əvvəlki ilə nisbətən 10 dəfədən çox artdı.

Müdrik dövlət xadimi Heydər Əliyev o zaman işğal altında olan torpaqlarımızın azad olunması istiqamətində sistemli və məqsədyönlü fəaliyyətin əsasını qoydu, həm ölkə daxilində, həm də beynəlxalq miqyasda ardıcıl işlərə başlanıldı.

Bunlardan biri respublikamızda sabitlik və təhlükəsizlik mühitinin təmin olunmasıdır. Çünki bu amil olmadan sosial-iqtisadi inkişafı, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasını təmin etmək, əlverişli biznes və investisiya mühiti yaratmaqla çoxşaxəli əməkdaşlığın əsasını qoymaq mümkün deyildi. Ona görə də, 1994-cü il may ayının 5-də Bişkəkdə imzalanmış protokola əsasən Qarabağ cəbhəsində atəşkəs barədə razılığın əldə edilməsi də məhz Heydər Əliyevin gələcəyə hədəflənmiş sərrast siyasi-taktiki gedişlərindən biri kimi dəyərləndirilməlidir. Daxili sabitliyi pozmaq cəhdlərinə qarşı mübarizədə ulu öndər ölkəmizi tarixin bu sınaqlarından da üzüaq çıxarmağı bacardı. "Əsrin kontraktı"nın imzalanması ərəfəsində 1994-cü il oktyabrında Surət Hüseynov tərəfindən idarə olunan dövlət çevrilişinə cəhdin qarşısı alındı. Heydər Əliyevin bircə çağırışı ilə bir anın içində Prezident Aparatının qarşısına toplaşan on minlərlə insanın yaratdığı izdiham xalqın möhtəşəm Heydər Əliyev sevgisinin, öz liderinə sadəqətini və inamını nümayiş etdirən silinməz tarix kimi yaddaşlardadır. 1995-ci ilin martında, radikal müxalifətə işləyan xarici antiazərbaycan qüvvələrinin təsiri altına düşmüş OMON-çuların qıyamı yatırıldı.

İkinci istiqamət olaraq keçid dövründə mütərəqqi iqtisadi inkişaf strategiyası hazırlandı və uğurla tətbiq olundu. Bu baxımdan düşünülmüş neft strategiyasına start verilməsi, bu mərəfdə beynəlxalq əməkdaşlıq platformasının yaradılması, xarici tərəfdaşlarla iqtisadi-ticari münasibətlərin tamalnın atılması və digər addımlar Azərbaycanın iqtisadı və bütövlükdə milli gücünü artıran faktor kimi müstəsna əhəmiyyətə malikdir.

Bundan sonra nəhayət, ölkədə ictimai-siyasi sabitlik umuman bərqərar olmağa başladı. 1995-ci il noyabrın 12-də bilavasitə Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul olunduqdan sonra dinc quruculuq işləri yeni keyfiyyətdə davam etdirilməyə başlandı.

Ulu öndərin rəhbərliyi ilə dövlətimizin qüdrətinin artırılması istiqamətində görülən və xüsusi əhəmiyyət kəsb edən işlərdən biri uğurlu ordu quruculuğunun əsasının qoyulması oldu və bu istiqamət dövlətin əsas prioritetlərindən birinə çevrildi.

Heydər Əliyev tərəfindən əsası qoyulan balanslaşdırılmış xarici siyasət kursunun mühüm strateji vektorlarından digəri isə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yani ölkəmizin arzı bütövlüyü çərçivəsində həll edilməsi idi. Ulu öndər bu məsələdə heç vaxt təşəbbüsü əldən vermədən dünya dövlətləri, o cümlədən aparıcı ölkələrlə BMT, ATƏT və onun Minsk qrupu, digər nüfuzlu beynəlxalq təşkilatlar səviyyəsində bu mövzuda danışıqlar apararaq beynəlxalq tədbirlərdə və qurumlarda Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən və Ermənistanın işğalçılıq siyasətini pislayan qətnamələrin və bəyanatların qəbul olunmasına nail oldu və illər sonra qazandığımız Böyük Qələbənin siyasi və beynəlxalq hüquqi əsaslarının formalaşması üçün sanballı zəmin yaratdı.

Bütün bu hədəflərə çatmaq uçun ilk növbədə, milli birliyə nail olmağın mustəsna əhəmiyyətə malik olduğunu "azərbaycançılıq" ideologiyasının müəllifi olan Heydər Əliyev hamıdan yaxşı bilirdi. Onun 10 noyabr 2001-ci il tarixdə Bakıda keçirilən Dünya azərbaycanlılarının I qurultayında dediyi *"Bütün dünyaya səpələnmiş azərbaycanlıların birliyi, həmrəyliyi indi həm bizim üçün, həm da dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar üçün xüsusi əhəmiyyət kəsb edir"* sözləri da məhz bu mövqeyin ifadəsidir.

Heydər Əliyevin öz xalqının xoşbəxt gələcəyi naminə gördüyü işləri tək-tək sadalamaqla bitirmək mümkün deyil. Milli Qurtuluş Günü barədə danışarkən artıq öz təsdiqini tapmış belə bir qanaati təkrarən bəyanə istəyərdim ki, xalqımız Azərbaycanın bugünkü uğurlarının bünövrəsini qoymuş Heydər Əliyevi o zaman hakimiyyətə davət etməklə böyük müdriklik nümayiş etdirdi. Bu tarixi yollara nəzər saldıqca bir daha əmin olursan ki, ulu öndərin *"Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir"* tezisi hər bir dövr uçun aktuallığını qoruyub saxlayır.

Milli Qurtuluş Gününün ən düzgün dəyərini isə Prezident İlham Əliyev ifadə edib. O, Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş tantənəli marasimdəki çıxışında ulu öndərin Azərbaycanın müstəqiliyi və inkişafı naminə göstərdiyi fəaliyyətə siyasi qiymət verərkən demişdir: *"1993-cü ildən bəşlayaraq Azərbaycan bu günə qədər uğurlu inkişaf yolu ilə gedir...Ondan sonra Azərbaycanda sabitlik dövrü başlamışdır və bu dövr bu gün da davam edir. Ölkəmiz uçün çox önəmli qərarlar qəbul edilmişdir, siyasi islahatlara start verilmişdir. Məhz o illərdə bizim inkişafımızla bağlı strateji seçimlər edilmişdir ki, Azərbaycan müasir, demokratik ölkə kimi inkişaf etsin"*.

Siyasi varislik və davamlı islahatlar kursu ilə yeni uğurlara doğru

Heydər Əliyev irsini araşdıran tədqiqatçıların ifadə etdikləri mühüm qənaətlərdən biri budur ki, onun xalqın firavan gələcəyi və dövlətin parlaq perspektivləri uçün ən böyük miraslarından biri siyasi varisliyin təmin olunmasıdır. O, özündan sonra Azərbaycan dövlətini müstəqil, milli maraqlara və milli-mənəvi dəyərlərə, xalqın ali iradəsinə əsaslanan siyasət həyata keçirməklə zirvələrə daşıyacaq lider - şəxsiyyət yetişdirməklə dövlətçilik tariximizə ən böyük xidmətlərindən birini göstərdi.

Ulu öndərin inamı, xalqın böyük etimadı özünü tam doğruldu. İlham Əliyev xəlqın iradəsi əsasında Prezident seçildikdən sonra ölkəmizin inkişafında yeni bir mərhələnin əsası qoyuldu. Azərbaycan öz iqtisadi, siyasi gücü, hərbi qüdrəti ilə, xalqımızın mübarizə ruhu və əzmi ilə yeni zirvələri fəth etməyə doğru inamla irəliləməyə başladı. Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 19 ilə yaxın müddət ərzində bütün sahələrdə möhtəşəm və tarixi əhəmiyyətə malik nailiyyətlər əldə olunub. Bir zamanlar xəyal kimi görünən nəhəng enerji-nəqliyyat və infrastruktur layihələri dövlətimizin təşəbbüsü və liderliyi ilə reallaşdırılmış, Azərbaycan regional güc mərkəzinə və Cənubi Qafqaz bölgəsinin aparıcı dövlətinə çevrilmişdir. Prezident İlham Əliyevin müəllifi olduğu milli inkişaf modelinin uğurla tətbiq olunması nəticəsində Azərbaycanda dayanıqlı iqtisadi sistem formalaşmış, bölgələrin davamlı və tarazlı sosial-iqtisadi inkişafı təmin edilmişdir. Onun rəhbərliyi ilə ölkəmizdə siyasi sistemin və ictimai-siyasi münasibətlərin inkişafına xidmət edən kompleks xarakterli islahatlar kursuna start verilmişdir. Yeni siyasi konfiqurasiyanın formalaşdırılması, siyasi dialoq prosesinin dərinləşdirilməsi, vətəndaş cəmiyyəti təsisatının inkişafına xidmət edən addımların atılması həm Azərbaycanın demokratik inkişaf yolunda inamla irəliləməsinə, həm da milli həmrəyliyin gücləndirilməsinə təkan vermişdir.

44 günlük Vətən müharibəsi zamanı əksər siyasi partiyaların birgə bəyanat imzalayaraq ölkəmizin ərazi bütövlüyünün təmin olunması istiqamətində Ali Baş Komandan canab İlham Əliyevin siyasətinə birmanalı dəstək göstərmələri və postmünaqişə mərhələsində ümummilli məsələlərdə vahid mövqedən çıxış etmələri bu siyasi birliyin bariz nümunəsi və ayanı ifadəsidir.

Onun praqmatik, çoxvektorlu xarici siyasət kursu nəticəsində Azərbaycanın dünya miqyasında reputasiyası güclənmişdir. Ölkəmiz beynəlxalq dialoq və əməkdaşlıq, multikulturalizm və tolerantlıq məkanı kimi tanınmışdır. Respublikamız ötən müddət ərzində başarıyyət uçün taleyüklü məsələlərin həllində mühüm rol oynamış, bu istiqamətdə əhəmiyyətli təşəbbüslər irali sürmüş və sistemli fəaliyyət göstərmiş, regional və beynəlxalq təhlükəsizliyə mühüm töhfələr vermişdir.

Son illər siyasi-ideoloji və mənəvi müstəvidə hayata keçirilən işlər xalqımızın həmrəyliyinin güclənməsini, o cümlədən vətənə sədaqət ruhunda ganc nəslin yetişməsini təmin etmişdir. Milli dəyərlər əsasında tərbiyə olunan Azərbaycan gənclıyi həm ölkəmizi beynəlxalq müstəvidə layiqincə təmsil etmək məsliyyətini uğurla yerinə yetirməkdə, həm da respublikamızın ərazi bütövlüyünün təmin olunmasında öz üzərinə düşən vəzifənin öhdəsindən məsuliyyətlə və şərəfli qəlməkdə davam edir.

Ərazi bütövlüyü - milli qurtuluşumuzun əsas qayəsidir

Danılmaz faktdır ki, Azərbaycanın Ermənistan üzərində qazandığı tarixi qələbəyədək artıq tarixin arxivinə gömülmüş Dağlıq Qarabağ münaqişəsinin hər hansı hallı formatı ilə bağlı bir çoxlarında, hatta ən yüksək siyasi çevrələrdə aydın təsəvvür yox idi. Çünki bu, uzun illər ərzində siyasi-diplomatik, hərbi-strateji və iqtisadi müstəvilərdə görülən işlərin, uğurlu xarici siyasətin və beynəlxalq fəaliyyətin nəticəsi olaraq sadə və sıradan bir məsələ deyil. Lakin müdrik siyasətçi, Azərbaycanın Müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyev Heydər Əliyevin vəsiyyətinə əməl edərək onun ən böyük arzusunu yerinə yetirdi. Xalqımız bu misilsiz nailiyyətə imza atdı, milli qürur və ləyaqətin, tarixi ədalətin bərpasına nail oldu.

31 oktyabr 2003-cü il tarixində keçirilən andıçma marasimindəki nitqində *"Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir"*, - deyən canab Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xalqımızın və dövlətimizin yeni və ən şanlı tarixi yazıldı. Azərbaycan xalqı və dövləti düşmən üzərində parlaq, inamlı qələbə qazanmaqla öz gücünü dünyaya nümayiş etdirmiş oldu. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində Şuşanın işğaldan azad edilməsinin tarixi əhəmiyyətindən danışarkən *"Mən bu gün ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Urəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük qələbədir! Bu gün şəhidlərimizin, ulu öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!"*, - deyə bildirdi.

Tarixi paralellər aparsaq, gərək ki, Heydər Əliyev Azərbaycanı bir dövlət kimi mustəqilliyini itirmək təhlükəsindən xilas etmişdisə, İlham Əliyev ölkənin ərazi bütövlüyünün bərpasını təmin etdi. Bunların hər ikisi - müstəqillik və ərazi bütövlüyü xilaskarlıq missiyasının bir-birini tamamlayan qoşa qanadlarıdır. Çünki dövlətin mövcudluğu baximından vəhdətdə olmalı bu iki şərtin birini digərsiz təsəvvür etmək mümkün deyil. Bu, siyasi varisliyin ən bariz nümunəsidir.

Zaman Heydər Əliyevin qurtuluş missiyasının layıqli qıymətini verdi, ulu öndərin qətiyyəti - prinsipial mövqeyi, uğurlu daxili və xarici siyasət kursu Azərbaycan dövlətinin qüdrətinin artmasını, xalqımızın rifahının yüksəlməsini, mustəqil respublikamızın dünya arenasında öz sözü və nüfuzu olan ölkə, etibarlı tərəfdaş kimi tanınmasını təmin etdi. Bu il aprelin 22-də Dünya Azərbaycanlılarının azad Şuşada keçirilmiş növbəti V forumunda - Zəfər Qurultayında çıxış edən Prezident İlham Əliyev əldə olunmuş nailiyyətlərin məhz Heydər Əliyev siyasətinin tantənəsi olduğunu bildirərək demişdir: *"Bu gün alnımız açıqdır, bu gün üzümüz gülür, bu gün başımız dikdir və həmişə belə olacaq. Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq, bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz"*.

Əli HÜSEYNLİ,
Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.